Yazan Esmira Məmmədova
01.08.17 20:58 -



Ermənistan Müdafiə Nazirliyinin mətbuat katib Artsurun Ovanisyan bu gün avqustun 1-də Azərbaycanla sərhəddə yerləşən postlardan birində güllə yarası alan hərbçinin baş serjant Armen Mexakoviç Nazlıxanyan olduğunu bildirib. Onun dediyinə görə yaralının vəziyyəti "orta ağırdır" və İcevan xəstəxanasında müalicəsi mümkün olmadığından Yerevana aparılıb.

Son günlər Azərbaycan-Ermənistan sərhədi boyu gərginlik müşahidə olunur. Ötən bazar günü Ermənstan ordusunun açdığı atəşlə Azərbaycan ordusunun leytenantı şəhid olub.